

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (23.637)

*24 dekabr 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.



## 2020-ci ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar-noyabr aylarında 2 milyard 556 milyon 981 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 5550,2 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 967 milyon 182 min 300 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 948 milyon 959 min 900 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 899 milyon 461 min 800 manatı və ya 94,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-noyabr aylarında 458 milyon 7 min 200 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 24202 ton, süd istehsalı 83067 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 52 milyon 39 min 200 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 4,7 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 41 milyon 250 min 600 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 164 milyon 795 min 700 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 30 faiz çoxdur. Verilmiş kreditlərin 17 milyon 353 min 800 manatı və yaxud 10,5 faizi qısamüddətli, 147 milyon 441 min 900 manatı və yaxud 89,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 dekabr 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 91728-ə çatmışdır ki, bunun da 79964-ü və ya 87,2 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar-noyabr aylarında açılmış 34226 bank hesabının 34207-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 dekabr 2020-ci il tarixə 1406-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-noyabr aylarında 450 milyon 839 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 387 milyon 539 min 900 ABŞ dolları təşkil etmiş, 324 milyon 240 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 529,8 manata çatdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 13,1 faiz çoxdur.

* * *

1 noyabr 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 2519 nəfər artaraq 461 min 583 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılmasına, daha çox keyfiyyətli yerli məhsulların istehlakının təşviqinə xidmət edən müxtəlif nəzarət tədbirləri Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm vəzifələrdəndir.***

## Keyfiyyətin yüksəldilməsi diqqət mərkəzindədir

Noyabr ayında, ümumilikdə, məhsul nümunələrinin 85 halda, o cümlədən qida məhsullarının 78 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə nöqsan aşkar edilməmişdir. Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması prioritet vəzifə kimi diqqətdə saxlanılır. Bu məqsədlə hesabat ayı ərzində xidmət tərəfindən 28 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür.

İqtisadiyyatda ailə təsərrüfatı modelinin dəstəklənməsi işi muxtar respublikada davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində noyabr ayı ərzində, ümumilikdə, 6 ailə təsərrüfatına istehsal etdikləri məhsulların etiketlərinin hazırlanmasında müvafiq köməkliklər göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün istehsal olunan məhsullardan 17 halda nümunələr götürülərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların və standartın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Ötən ay "Ailə təsərrüfatı məhsulları" yarmarkası təşkil olunmuş və yarmarkaya 447 ailə təsərrüfatı tərəfindən 1601 çeşiddə məhsul çıxarılmışdır. Ümumilikdə, 10 min 400 nəfərin iştirak etdiyi yarmarkada 410 min manat həcmində məhsul satılmışdır ki, bunun da 36 min 500 manat həcmində olanını sahibkarlıq subyektləri almışdır. Marketinq təlimi üzrə yeni ailə təsərrüfatları məlumatlandırılmış və sahibkarlıq subyektləri ilə ailə təsərrüfatları arasında kooperasiya əlaqələri daha da genişləndirilmişdir.

İstehlakçıların ailə təsərrüfatı məhsulları haqqında rahat məlumat əldə edə bilməsi və ailə təsərrüfatı məhsullarının aktiv satışının təşviqi məqsədilə hazırlanmış "Kənddən al" mobil tətbiqinin məlumat bazasının aktuallaşdırılması istiqamətində birgə fəaliyyət davam etdirilmişdir.

Hesabat ayında Naxçıvan Biznes Mərkəzində araq istehsalı ilə məşğul olan ailə təsərrüfatları nümayəndələri ilə maarifləndirici görüş keçirilmiş, minifiltr qurğusunun təqdimatı olmuş, 13 yeni ailə təsərrüfatında minifiltr qurğusunun quraşdırılması təmin edilmiş və müvafiq ailə təsərrüfatlarının sayı 47-yə çatmışdır. Alkoqollu içkilərin standartlara uyğunluğu ciddi nəzarətdə saxlanılır. Ötən ay alkoqollu içkilər istehsal edən 2 müəssisədə istehsal olunan arağın 1 halda, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Xidmət sektoru əhalinin hər gün istifadə etdiyi və keyfiyyət standartlarına həssas olan obyektlərdəndir. Bu məqsədlə xidmət tərəfindən hesabat ayı ərzində 17 ət satışı mağazasına, 84 ictimai iaşə və xidmət sahəsinə, 285 ərzaq və qeyri-ərzaq mağazasına, 58 bərbərxanaya maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarına uyğun olaraq 7 topdansatış obyektində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 1 topdansatış obyektində 4068 ədəd uşaq qidasının üzərində Azərbaycan dilində zəruri məlumatların olmadığı aşkarlanmış və nöqsanların aradan qaldırılması üçün tədbirlər icra olunmuşdur.

Xarici bazarlara çıxış imkanlarının artırılması, xüsusilə diqqət mərkəzindədir. Ötən ay təsərrüfat subyektləri ilə 20 halda informativ xidmət üzrə müqavilə bağlanılaraq istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə beynəlxalq mühafizəsi üçün xidmətlər haqqında məlumatlar müəssisə rəhbərlərinin diqqətinə çatdırılmışdır. Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə, ümumilikdə, 2048 qaz məişət cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 14 qaz məişət cihazının idxalına icazə verilməmişdir. Texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olmayan 241,9 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılmışdır.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

# Rabitə və informasiya texnologiyaları yeni inkişaf mərhələsində



***Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi sübut edir ki, elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Bu siyasətin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyaları son illər sürətlə inkişaf edərək bütün sahələrdə və gündəlik həyatda insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilib. İnformasiya-kommunikasiya texnologiyalarının ən yeni nailiyyətləri idarəetmə, təhsil, səhiyyə, biznes, turizm və bank xidməti kimi sahələrdə tətbiq edilərək cəmiyyətin hər bir üzvünə mövcud imkanlardan faydalanmağa şərait yaradır.***

Ölkəmizdə əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan rabitə sahəsinin inkişafı müasir mərhələdə dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu öndərin respublikaya hər iki rəhbərliyi dövründə rabitənin gələcək inkişafı üçün bir sıra mühüm qərarlar qəbul edilib, ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün maddi-texniki baza yaradılıb.

2003-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən böyük uzaqgörənliklə imzalanan və bu məqsədlərə çatmağın həlli istiqamətlərini müəyyənləşdirən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" həyata keçirilməsi müasir dövrdə informasiya və kommunikasiya sahəsinin inkişafına əsaslı zəmin yaradıb. Əldə olunmuş nəticələr, informasiya cəmiyyətinin əsaslarının yaradılması, vətəndaşlar, cəmiyyət, özəl sektor və dövlət orqanları tərəfindən informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə növbəti mərhələlərdə fəaliyyət istiqamətlərinin planlaşdırılması üçün əlverişli mühit yaratdı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üzrə Milli Strategiya"nın həyata keçirilməsi informasiya-kommunikasiya texnologiyaları sektorunun əsas göstəricilərini inkişaf etmiş ölkələrin müvafiq göstəriciləri səviyyəsinə çatmağına imkan verdi, cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamaqla, onlayn media, sosial şəbəkələr və digər yeni media vasitələrinin hərtərəfli fəaliyyətini reallaşdırdı. Bunun ifadəsidir ki, ötən dövrdə rabitə infrastrukturunun inkişafı davamlı xarakter alıb, rəqabətədavamlı informasiya-kommunikasiya texnologiyaları sektoru formalaşıb, ümumi daxili məhsulda poçt və informasiya sektorunun payı artıb, internet magistrallarına alternativ və yüksəksürətli birləşmələr çəkilib, tranzit informasiya imkanları genişləndirilməklə ölkəmiz regionun informasiya-kommunikasiya texnologiyaları xidmətləri bazarının aktiv iştirakçısına çevrilib. Bütün bu qeyd olunanların məntiqi nəticəsidir ki, regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir.

Muxtar respublikamızda da rabitə və yeni texnologiyaların inkişafı daim diqqət mərkəzində saxlanılır. Müstəqillik illərində bu qədim diyarda iqtisadiyyatın bütün sahələrində olduğu kimi, rabitə və yeni texnologiyaların inkişafı istiqamətində də nailiyyətlər əldə edilib, bu sahənin inkişafı üçün kifayət qədər imkanlar və şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması isə görüləcək işlərin daha dinamik, ardıcıl və sistemli şəkildə həyata keçirilməsinə imkan verib. Hər il muxtar respublikada həyata vəsiqə alan yeni layihələr arasında rabitə və yeni texnologiyalara aid layihələr də mühüm yer tutur. Bunu diyarımızın stasionar telefon şəbəkəsinin tamamilə Yeni Nəsil (NGN) Telekommunikasiya sisteminə keçirilməsi, habelə "Naxtel" mobil rabitə şəbəkəsinin abunəçi tutumunun artırılması üçün yeni baza stansiyalarının istifadəyə verilməsi istiqamətində də görmək olar. Həyata keçirilən belə tədbirlər 4-cü nəsil "Naxtel" abunəçilərinin sayının artmasına səbəb olub. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində simli və simsiz internetə çıxış imkanları mövcuddur.

Qeyd olunmalıdır ki, muxtar respublika optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə şərait yaradıb. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan verib ki, nəticə etibarilə "Evədək optika" layihəsinin icrası uğurla davam etdirilir.

Hazırda muxtar respublika əhalisi müasir rəqəmsal xidmətlərdən istifadə edir, həmçinin yeni istifadəyə verilən kənd mərkəzlərində rabitə xidmətləri üçün müvafiq sahələr ayrılır. Avtomat telefon stansiyaları müasir tələblərə cavab verən elektrontipli avtomat telefon stansiyaları ilə əvəz olunur. Bu stansiyalarda quraşdırılan xüsusi avadanlıq bir sıra bölgələrdə internetin sürətinin tənzimlənməsinə, həmçinin abonent sayının artmasına xidmət edir. Yeni texnologiyalar tətbiq olunmaqla xidmətin səviyyəsi ilbəil yüksəldilir, maddi-texniki baza gücləndirilir, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilir, yeni rabitə evləri






inşa olunur. İstər şəhər, istərsə də kənd yaşayış məntəqələrinin rabitə və informasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində reallaşdırılan tədbirlər sakinlərin bu xidmətlərdən səmərəli istifadəsinə geniş imkanlar açır.

Bu tədbirlərin davamı olaraq cari ildə Culfa rayonunda istifadəyə verilən Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olmaqla, Culfa Rayon Rabitə İdarəsi, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Culfa rayon filialı, "Naxtel" müştəri xidmətləri, "Naxçıvanpoçt" publik hüquqi şəxsin Culfa rayon filialının fəaliyyəti üçün zəruri iş şəraiti yaradılıb. Bu tədbir Kəngərli rayonunda da həyata keçirilib. Belə ki, dekabr ayının 8-də rayonda Rabitə Evi istifadəyə verilib. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Kəngərli Rayon Rabitə İdarəsi, "Naxtel" müştəri xidmətləri, "Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialı yerləşir. Kəngərli Rayon Rabitə İdarəsi 6, "Naxçıvanpoçt" publik hüquqi şəxsin rayon filialı isə 12 kompüterlə təchiz edilib, həyətdə anbar və qaraj tikilib, generator quraşdırılıb.

Bu da xüsusi qeyd olunmalıdır ki, hər il muxtar respublika ərazisində yeni tikilən kənd mərkəzlərinə, təhsil müəssisələrinə, dövlət təşkilatlarına fiber-optik xətlər çəkilir və bu xətlər üzərində iritutumlu telekommunikasiya şəbəkələri qurulur. Reallaşdırılan belə tədbirlər isə muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında öz bəhrələrini göstərir.

Naxçıvan Muxtar Respublikasında informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqi, elektron poçt-maliyyə xidmətlərinin, internetdən istifadə səviyyəsinin artırılması da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən yaradılmış "Elektron hökumət" portalının imkanları ildən-ilə inkişaf etdirilir, dövlət təşkilatları tərəfindən göstərilən elektron xidmətlər istifadəçilərə təqdim olunur.

Muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqinə də böyük önəm verilir. Bunun ifadəsidir ki, təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılıb, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilib, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslər keçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində müəyyən ixtisasların Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilməsi ilə bağlı bir sıra tədbirlər də həyata keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən informasiya texnologiyalarının müasir çağırışlar əsasında həyata keçirilməsi, əhaliyə yüksəkkeyfiyyətli internet və rabitə xidmətlərinin göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatında və tabeli qurumlarında struktur dəyişikliyi edilib, həmçinin internet saytlarının hazırlanması və tərtibatı, proqram təminatının və informasiya sistemlərinə texniki dəstəyin göstərilməsi, habelə optik kabel çəkilişi üzrə ixtisaslı kadrların hazırlanması istiqamətində zəruri tədbirlər həyata keçirilməkdədir.

Muxtar respublikada rabitə sahəsində çalışanların fəaliyyəti də daim diqqət mərkəzində saxlanılır. Hər il öz fəaliyyətində fərqlənən rabitə işçilərinə fəxri adlar verilir, onlar orden və medallarla təltif olunurlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada rabitənin inkişafını səciyyələndirərək deyib: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

*Muxtar respublika sakinlərinə nümunəvi rabitə xidmətinin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlər informasiya cəmiyyətinə inteqrasiyanı sürətləndirməklə yanaşı, gələcəkdə də insanların rahatlığının təmin olunmasına hesablanıb və öz bəhrəsini verəcək.*

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Kənd təsərrüfatı işləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən noyabr ayında da kənd təsərrüfatının müxtəlif sahələrində zəruri tədbirlər diqqətdə saxlanılmışdır. Payız əkinlərinin optimal müddətdə aparılması, şumdan qabaq mineral və üzvi gübrələrin torpağa verilməsi, keyfiyyətli toxum tədarükü və toxumun dərmanlanması, əkinlərin şırım üsulu ilə aparılmasının əhəmiyyəti ilə bağlı tarla seminar məşvirələri keçirilmişdir. Payızlıq taxıl əkini ilə əlaqədar müraciət edən Kəngərli rayonundan 4, Babək rayonundan 9, Sədərək rayonundan 2 təsərrüfat sahibinə lazımi tövsiyələr verilmiş və əməli köməklik göstərilmişdir.***

Payız əkinlərinin optimal müddətdə başa çatdırılması, əkin zamanı baş verə biləcək nasazlıqların qısa zamanda aradan qaldırılması üçün rayonlarda payız əkinlərində iştirak edən texnikaların texniki vəziyyəti daim nəzarətdə saxlanılaraq texnika sahibləri ilə fərdi söhbətlər aparılmışdır. Qarğıdalı tədarükü başa çatdıqdan sonra biçində iştirak edən kombaynlara texniki qulluğun göstərilməsi və onların bitki qalıqlarından təmizlənərək saxlanca qoyulması qaydaları haqqında mexanizatorlara ətraflı məlumatlar verilmişdir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetində dəyirmi masa keçirilmişdir. "Araz" Elm-İstehsalat Birliyinin təcrübə sahələrində Naxçıvan Dövlət Universitetinin Aqrokimya və torpaqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrinin iştirakı ilə təcrübə işləri aparılmışdır.

Hesabat ayında Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2 çeşiddə, 6 halda gətirilmiş fosfor və azot gübrələrinin analizləri aparılmış, nəticələr haqqında aidiyyəti üzrə məlumat verilmişdir. 6 torpaq mülkiyyətçisinin gətirdiyi torpaq nümunələri analiz edilmiş və müvafiq olaraq gübrə normaları hesablanaraq onlara yazılı məlumat verilmişdir. Taxıl bitkilərinin seleksiyası, bitki mühafizəsi və toxumçuluq şöbəsi tərəfindən 2021-ci tədqiqat ili üçün 56 payızlıq bərk və yumşaq buğda sortlarının əkini aparılmış, yüksək məhsuldarlıq və keyfiyyət göstəricilərinə malik 6 bərk və yumşaq buğda sortu və hibridlərinin artırılması məqsədilə əkinlər həyata keçirilmişdir. Şıxmahmud sort sınaq məntəqəsində də 2021-ci ilin məhsulu üçün sınaq məqsədilə 4 bərk, 23 yumşaq buğda və 5 arpa sortu əkini aparılmışdır.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri ötən ay Naxçıvan Muxtar Respublikası ərazisində istixana və parnik işləri ilə məşğul olan sahibkarlarla görüşlər keçirmiş, onlara istixana şəraitində tələb olunan keyfiyyətli toxum və şitillərin alınıb əkilməsinə, xəstəlik və zərərvericilərin qarşısının vaxtında alınmasına dair tövsiyələr vermişlər. İdarəyə 28 ailə təsərrüfatı sahibi tərəfindən müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə gətirilən nümunələrə baxılmış təsərrüfatçılara lazımi mübarizə tədbirinin vaxtında aparılması üçün məsləhətlər verilmişdir.

Heyvandarlıq təsərrüfatlarında mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalandırma tədbirlərinin davam etdirilməsi, 2020-2021-ci illərin payızqış mövsümündə qarşıda duran vəzifələrlə bağlı sahibkarlarla fərdi qaydada maarifləndirici görüşlər keçirilmiş, bukletlər paylanmışdır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluğa cəlb edilmiş sosial qayğıya ehtiyacı olan ailələrə verilmiş iri və xırdabuynuzlu heyvanların saxlanması və yetişdirilməsi ilə bağlı dəvət olunmuş ailə təsərrüfatı sahibkarları ilə maarifləndirici görüş keçirilmiş və məsləhətlər verilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı Nazirliyinin***
***mətbuat xidməti***

Əqil Mehdiyev – 100

# Bir fotonun tarixçəsi

***Bir payız axşamı ailə albomunu vərəqlərkən bir fotoya rast gəldim. Fotoda tanış bir çöhrə məni xatirələrin qoynuna alıb təzə əsrin ilk illərinə apardı. Bu o idi: Canım ağrıyanda dəfələrlə üz tutduğum, şəfqətli həkim, el ağsaqqalı Əqil Mehdiyev. Gördüyünüz foto onunla yolyoldaşı olduğum zaman çəkilmişdi. 2003-cü il iyulun 12-də Qarsa gedirdik. Gedişimizin səbəbi o idi ki, həmin gün Qarsda ulu öndər Heydər Əliyevin abidə-büstünün və onun adını daşıyan parkın açılışı olacaqdı. Naxçıvandan Ali Məclis Sədrinin rəhbərliyi altında gedən 200 nəfərlik nümayəndə heyətinin tərkibində bu tədbirlərdə iştirak edəcəkdik. Təbii ki, hamı kimi, mən də həmin səfəri səbirsizliklə gözləyirdim.***

Yola düşəndə iş elə gətirdi ki, mən Əqil həkimlə avtobusda yanaşı oturmalı oldum. Özü dəvət etdi və dəvətini məmnunluqla qarşıladım. Söhbətimiz tuturdu. Oğuztürk yurdu olan Naxçıvanla Qarsı ayıran 250 kilometrlik bu yolda o qədər deyiləsi, danışılası mövzular vardı ki… Hər ikimiz keçmiş illəri xatırlatdıq, müayinə etdiyi xəstə oğlumun səhhəti ilə maraqlandı və kədərimi duyunca mövzudan yayındı. Qarşıda əzəmətlə ucalan Ağrı dağının ecazkar gözəlliklərindən bəhs etdi. Dağın qoşa zirvəsi həmişəki kimi yenə ağ pambığa oxşayan parça-parça dumana bürünmüşdü. Dedi ki, təbiətin hər zərrəsində bir gözəllik var, hər gözəllikdə isə Yaradanın qüdrətini görməmək mümkün deyil. Bəzən də bu qüdrəti tam dərk etmək olmur, tam dərk etmək qüdrətində deyilik.



Düşüncələri onun din-iman əhli olduğundan xəbər verirdi. Təsadüfi deyildi ki, Əqil Mehdiyevə ömrünün ixtiyar çağında müqəddəs Kərbəla və Həcc ziyarətləri də qismət olmuşdu.

Onu da əlavə etdi ki, ta uşaqlıq çağlarından bu dağa təbiətin əsrarəngiz gözəlliyi kimi baxmaqdan doymayıb. Hərdən arzulayıb ki, bu dağa əli yetsin, onun ətəyində yaşayan insanlarla təmas qursun. Bu mənim də arzum idi və mən Əqil həkimdən fərqli olaraq 1992-ci ildə Sədərək-Dilucu körpüsündən keçmişdim. Həmin il mayın 28-i bir millətin iki dövlətini birləşdirən "Ümid" körpüsünün açılışı yaddaşıma əlamətdar hadisə ilə həkk olunmuşdu. O zaman ulu öndərimiz Heydər Əliyev körpünün açılışında belə demişdi: ***"Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Naxçıvan Türkiyəyə açıldı".***

Bu gün isə Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə mövcud olan qarşılıqlı əlaqələrin dinamik şəkildə inkişafı Əqil həkimi də arzusuna qovuşdurdurdu.

Onunla tanışlığım ötən əsrin 70-ci illərindən başlamışdı. O zaman Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi idi. "Şərq qapısı" qəzetinin müxbiri kimi müsahibə almışdım və bu qənaətə gəlmişdim ki, çalışdığı 11 il 6 ay ərzində bu vəzifəyə şərəf verib, onu hamının gözündə ucaldıb. Baş həkimin yüksək təşkilatçılığı sayəsində xəstəxanada fizioterapiya, laboratoriya və rentgen kabinələri yeni avadanlıqlarla təchiz edilib, əməliyyat bloku yaradılıb, çarpayıların sayı 250-dən 400-ə çatdırılıb. Travmatologiya, Urologiya, Anesteziologiya və Reanimasiya şöbələri təşkil edilib, gənc həkimlərin fəaliyyəti üçün geniş imkanlar yaradılıb, Naftalan vannaları ilə müalicə prosedurlarına başlanılıb.

Yolboyu keçdiyi həyat yoluna güzgü tutduq. Söhbət əsnasında dedi ki, əgər həkimin işığı başqasının üzərinə düşmürsə, özünün sönməsi yaxşıdır. Onun özü şəfalı əlləri ilə xəstələrə ümid çırağı idi. Bəzən belə həkimlərin qədrini ağır xəstəliyə düçar olub onların möcüzəli əlləri ilə yenidən həyata, sağlam yaşamağa qayıdandan sonra daha yaxşı bilirik. Bəzən isə onların etdiyi bu misilsiz yaxşılığı tez unuduruq.

Əqil həkim 1984-cü ilin iyul ayında heç bir səbəb olmadan tutduğu vəzifədən azad edilib sıravi həkim kimi Nehrəm Kənd Xəstəxanasına göndəriləndə də taleyin belə bir qismət payını yaşamalı olmuşdu. O özünəməxsus soyuqqanlılıq, dözüm və səbir göstərərək, öz ləyaqət və vicdanı ilə həkimliyini davam etdirib, kənd əhalisinin sağlamlığı keşiyində dayanıb. Kənd sahə xəstəxanasının və doğum evinin yeni binalarının istifadəyə verilməsində, Nehrəm Kənd Sahə Xəstəxanasında Cərrahiyyə şöbəsinin yaradılmasında müstəsna xidmətləri vardır.

Əqil həkim 1990-cı il iyulun 22-də ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlişinin bu qədim diyarın ictimai-siyasi həyatında mühüm canlanma yaratdığından da söz açdı. Dəfələrlə onun görüşünə getdiyini, söhbətlərini xatırlatdı. Onu da qeyd etməliyik ki, ulu öndərin Nehrəm kəndinə xüsusi sevgisi cavabsız qalmayıb. 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd göstərilib. 1990-cı il sentyabrın 26-da seçicilərlə keçirilən görüşdə Əqil Mehdiyevin çıxışı kənd seçicilərinin yekdil rəyini bir daha ifadə edib. Beləliklə, ulu öndərin böyük siyasətə qayıdışı Nehrəm kəndindən də keçib.

1991-ci il sentyabrın 3-də ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Naxçıvanın, eləcə də bütün Azərbaycanın xilası ilə nəticələnib. Həmin illərdə digər sahələr kimi səhiyyənin də mövcud vəziyyəti Ali Məclis Sədrini narahat edib. 1992-ci il iyunun 29-da Ali Məclisdə keçirilən müşavirədə o bu narahatlıqları belə dilə gətirib: Bizim səhiyyə müəssisələri bərbad vəziyyətdədir. Onlar öz işlərini lazımi səviyyədə qura bilməyiblər. Ona görə də biz təcili olaraq tədbirlər görməliyik. O illərdə görülən işlər səhiyyənin tədricən dirçəlməsinə şərait yaradıb. Ulu öndər Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra da Naxçıvanda səhiyyəni diqqətdə saxlayıb. 1993-cü il noyabr ayının 12-də Əqil Mehdiyev yenidən Nəriman Nərimanov adına Naxçıvan Muxtar Respublika Xəstəxanasına baş həkim və qısa müddətdən sonra 1995-ci il iyun ayının 12-də muxtar respublikanın Səhiyyə naziri təyin edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamında deyildiyi kimi, ömrünün 50 ildən çoxunu səhiyyə təşkilatçısı və həkim kimi muxtar respublika səhiyyəsinin inkişafına həsr edən Əqil Mehdiyev Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri vəzifəsində səmərəli fəaliyyət göstərib. O, muxtar respublikanın ictimai və sosial həyatında da yaxından iştirak edib, birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri olub. Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Əqil Mehdiyev "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adına layiq görülüb, "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib.

Qarsda parkın açılışından sonrakı xatirələr yenidən qəlbimdə çözələndi. Əqil həkim ulu öndərin büstünə tamaşa edərkən köks ötürərək demişdi: "Belə şəxsiyyətlər Azərbaycan tarixində yüz ildə bir dəfə yetişir".

Fotomüxbir isə öz işində idi, aparatı bir neçə dəfə işə salıb kadrları yaddaşa həkk etdi.

Baxıram, o səfərdən qalan bu fotodur, orada əks olunanlardan həyatda qalan isə tək mən, bir də xoş xatirələr…

Əqil Mehdiyev indi də bizimlə mənən yaşayır. Onun xoş əməlləri, həkim şəfqəti bütün səhiyyə işçiləri üçün örnəkdir.

**Hüseyn ƏSGƏROV**

# İcbari tibbi sığorta vətəndaşların mənafeyinə yönəldilmiş bir sistemdir

Bu gün muxtar respublikamızda yaradılan ən müasir səhiyyə infrastrukturu insan amilinə verilən yüksək dəyərin ifadəsidir. 2017-ci ildən diyarımızda bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın tətbiqinə başlanılması isə bu sahəyə göstərilən qayğının bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il martın 18-də "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanın imzalanmasında məqsəd, əsasən, muxtar respublikada tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etməkdən ibarətdir.



İcbari tibbi sığortanın fəaliyyəti ilə daha yaxından tanış olmaq məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs şöbə müdiri Vüsal Məmmədova müraciət etdik. Öyrəndik ki, səhiyyə xidmətlərinin müasir tələblərə uyğunlaşdırılması, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi əsaslarla təkmilləşdirilməsində və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığorta sisteminin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İcbari tibbi sığorta vətəndaşların mənafeyinə yönəlmiş, onları keyfiyyətli və əlçatan tibbi xidmətlərlə təmin etməyə yardım edən bir sistemdir. Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar rayon mərkəzi xəstəxanalarında yenidənqurma işləri aparılıb, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılıb. "Səhiyyə İnformasiya İdarəetmə Sistemi" qurulub və vahid məlumat bazasının idarə edilməsi üçün server otağı təşkil edilib. Muxtar respublikamızın bütün rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanılıb, tibb işçilərinin əməkhaqları artırılıb. Ali Məclis Sədrinin imzaladığı "Naxçıvan Muxtar Respublikasında İcbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama əsasən 2020-ci il yanvarın 1-dən Naxçıvan şəhərində icbari tibbi sığorta tətbiq edilməyə başlanıb. Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına, Naxçıvan Muxtar Respublika, Əziz Əliyev adına Mərkəzi Uşaq xəstəxanalarına, Naxçıvan Muxtar Respublikası Kardioloji və Doğum mərkəzlərinə publik hüquqi şəxs statusu verilib. Həmin səhiyyə müəssisələrində çalışanların aylıq vəzifə maaşları 2020-ci il yanvarın 1-dən 50 faiz artırılıb.



Müsahibimin sözlərinə görə, ötən dövr ərzində icbari tibbi sığortanın tətbiq olunduğu inzibati ərazilərdə yaşayan vətəndaşlara cərrahi əməliyyatlar və invaziv müdaxilə, müxtəlif cərrahi əməliyyatlar, terapevtik stasionar müalicə olmaqla həyativacib, dəyəri yüksək tibbi müdaxilələrin maliyyələşməsi agentlik tərəfindən aparılıb.

Vüsal Məmmədovun sözlərinə görə, bu günə kimi qanunvericiliyin tələbləri əsasında tibb təchizatları və sığortaolunanlarla müqavilələr bağlanılıb, eyni zamanda həmin müqavilələrdə qeyd olunan tələblərə mütəmadi əməl olunması üçün zəruri tədbirlər görülüb.

Onu da öyrəndik ki, icbari tibbi sığortanın tətbiqindən çoxlu vətəndaş bəhrələnib. Onlardan biri Kəngərli rayon sakini Asya Abbasovadır. Asya xanımla həmsöhbət olduğumuz zaman dövlətimizin vətəndaşlar üçün yaratdığı şəraitdən ağızdolusu danışdı: – Həm gözümdə, həm də ürəyimdə bəzi narahatçılıqlar vardı. Sağ olsun dövlətimizi və bu sistemi biz vətəndaşlar üçün tətbiq edənlər. Əvvəlcə, Kəngərli Rayon Mərkəzi Xəstəxanasına müraciət etdim. Onlar mənə göndəriş yazaraq Diaqnostika Müalicə Mərkəzinə göndərdilər. Orada da icbari tibbi sığortanın əməkdaşları məni qarşılayıb göndərişimə müvafiq olaraq həkimlərə yönəltdilər. Heç bir maliyyə vəsaiti ödəmədən həm gözümdən, həm də ürəyimdən əməliyyat olunub evimizə qayıtdım. Həkimlərin göstərişinə əsasən bir neçə dəfə yoxlama müayinələrdən keçdim. Şükürlər olsun ki, artıq sağlamlığım geri qayıdıb. Bütün bunlar üçün dövlətimizə minnətdaram.

İcbari tibbi sığortadan yararlanan digər vətəndaş Uğur Əhmədovdur! Uğurun valideyni ilə həmsöhbət olduq. Onun dedikləri: – Maddi gəlirimiz aşağı olduğundan neçə müddətdir ki, oğlumu tonzillektomiya əməliyyatına yönəldə bilmirdik. Lakin muxtar respublikamızda vətəndaşların sağlamlığının qorunması məqsədilə icbari tibbi sığortanın tətbiq edildiyini eşidəndə sevincimizin həddi-hüdudu olmadı. Biz də bu fürsətdən yararlandıq. Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasında övladımı əməliyyat etdilər. Heç bir maddi ödəniş etmədən oğlumun sağlamlığı geri qayıtdı. Nə xoş ki bu torpaqda yaşayıb, insanların qayğısına qalınan bu diyarda fəaliyyət göstərik. Bütün bunlar üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarıq.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il 1 dekabr tarixdə "İcbari tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə publik hüquqi şəxs statusu verilməsi, yeni Nizamnamə təsdiq edilmişdir. Bütün bunlar vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin etməkdədir. Həyata keçirilən tədbirlər bir daha onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasının tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəkdir.

**Nuray ƏSGƏROVA**

# "Follow-up" dəstək layihəsi uğurla icra olunub

***Naxçıvan Dövlət Universiteti ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycan Nümayəndəliyi arasında onlayn formatda tədbir keçirilib.***

Tədbirdə universitetin rektoru, dosent Elbrus İsayev və KOICA Azərbaycan Nümayəndəliyinin direktoru Park Kumok iştirak ediblər.

Rektor son bir neçə il ərzində idarəetmə səmərəliliyinin artırılması və tələbələr üçün onlayn təhsil xidmətinin göstərilməsi məqsədilə Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılmasında KOICA ilə davamlı əməkdaşlığın uğurlarından danışıb. Qeyd edilib ki, proqram çərçivəsində modernləşdirilmiş avadanlıqlarla təmin olunmuş universitet, xüsusən pandemiya dövründə müəllim və tələbələrə distant təhsil zamanı, xüsusilə nümunəvi xidmətlər göstərib.

Xanım Park Kumok isə çıxışı zamanı proqramın uğurlu icrası üçün bütün əməyi olanlara minnətdarlığını ifadə edib və layihənin universitetdə Təhsil İnformasiya Sistemini daha da inkişaf etdirəcəyinə inandığını bildirib.

Qeyd edək ki, 2015-ci ildə universitet ilə KOICA arasında "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi başa çatdıqdan sonra 2018-ci ildə "Follow-up" dəstək layihəsi üçün müqavilə imzalanıb.

2018-ci il 8 iyun tarixdə isə qarşılıqlı müzakirələrdən sonra hazırlanmış və imzalanmış Anlaşma Memorandumuna əsasən hər iki tərəf 2020-ci il noyabrın sonunadək KOICA-nın dəstəyi ilə Naxçıvan Dövlət Universitetində qurulmuş sistemin təhlükəsizliyi, sistem funksiyalarının təkmilləşdirilməsi və əlavə funksiyaların yaradılması və digər məsələlərlə əlaqədar sistemin ümumi təkmilləşdirilməsi planlaşdırılıb. Məlumat üçün onu da bildirək ki, KOICA tərəfindən layihəyə 144,000 ABŞ dolları məbləğində qrant ayrılıb. Proqram çərçivəsində yaradılmış Akademik İdarəetmə Sisteminin aktual problemləri koreyalı mütəxəssislər tərəfindən dəyərləndirilib və sistemdən səmərəli istifadə üçün köhnəlmiş avadanlıqlar müasirləri ilə əvəz edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Əfsanəyə dönən ömürlər*

# Vüqarını dağlardan alan Vüqar



***Hər bir insanın doğulduğu, böyüdüyü və son nəfəsini verdikdən sonra əbədi yuxuya getdiyi bir torpaq vardır. Bu torpağa Vətən deyirik. Vətən millətin azadlığının və müstəqilliyinin simvoludur. Məhz bu səbəbdən insanlar ürəklərində hər zaman böyük bir sevgi olan Vətən sevgisini daşıyırlar. Bu sevgi, sadəcə, doğulduğumuz torpağı sevmək deyil, eyni zamanda mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, azadlığımızın simvolu olan ay-ulduzlu şanlı bayrağımızı, dilimizi, adət-ənənələrimizi sevməkdir.***

Düşmənin işğalçılıq siyasətinə son qoymaq üçün apardığımız 44 günlük müharibədə ürəyi bu sevgiylə dolu insanların qəhrəmanlıqları və fədakarlıqları tariximizə yeni bir tarix qatdı. İkinci Qarabağ müharibəsində ən yeni və qürurlu tariximizi yazanlar arasında qəhrəmanlar diyarı olan Naxçıvanın qorxmaz, yenilməz, məğrur igidləri də oldu. O igidlərdən biri də Vüqar Rza oğlu Əsgərov idi.

Vüqar 1994-cü ilin 26 noyabrında Kəngərli rayonunun Qarabağlar kəndində doğulmuşdu. Ailənin sonbeşiyi olan Vüqarın iki bacısı, bir qardaşı olub. Qardaşı Moskva şəhərində avtomobil qəzası nəticəsində həyatını itirdiyi üçün bacılarının və ata-anasının son ümid yeri idi Vüqar. İnsanın taleyi adında yaşayır, – deyiblər. Bəli, Vüqar da adının haqqını layiqincə verdi – öz vüqarı ilə… O, təbiətcə sakit, səmimi və hamı ilə ünsiyyət qura bilən bir gənc idi. Bu səbəbdən ətrafındakı insanlar tərəfindən çox sevilirdi. Vüqar orta təhsilini Qarabağlar kəndində Birinci Qarabağ müharibəsi şəhidi olan Əbülfəz İmanovun adını daşıyan məktəbdə almışdı. Universitetə qəbul olsa da, ailəsinin maddi çətinlikləri olduğu üçün ali təhsilini başa vura bilməmişdi. Atası Rza kişi ağır şəkərli diabet xəstəsi olduğundan ailənin bütün yükü Vüqarın üzərinə düşmüşdü. Hər zaman özündən çox ətrafındakı insanları düşünən Vüqar hərbi xidmətdə olduğu vaxtlarda da nizam-intizamı, qayğıkeşliyi, ayıq-sayıqlığı, vətənpərvərliyi ilə seçilirdi. Verilən döyüş tapşırıqlarını yüksək dəqiqliklə yerinə yetirən Vüqarın arzusu Vətəni Azərbaycanın işğaldakı torpaqlarını azad görmək idi. Hərbi xidmətini bitirdikdən bir qədər sonra Vətəni qorumaq arzusu onu müddətdən artıq xidmət edən hərbi qulluqçu olaraq yenidən səngərə qaytarmışdı. Vüqarın qorxmazlığı, vətənpərvərliyi ilə komandirlərinin sevgisini qazanmağı bacarmışdı.

2020-ci ilin 27 sentyabrında torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsində Qarabağı işğaldan azad etmək üçün könüllü olaraq döyüşə gedən Naxçıvan igidləri ilə birgə Vüqar da cəbhə xəttinə yola düşmüşdü. Elinə-obasına, torpağına bəslədiyi sevgisi ilə zirehlənən Vüqarın qəlbində düşmənə duyduğu nifrət və qəzəb onun ən güclü silahı idi.

Döyüşdə iştirak etdiyi vaxtlar yoldaşları ilə danışarkən yaxın günlərdə Qarabağı tam azad edəcəklərini və çox sevdiyi futbol oyununu Cıdır düzündə oynayacaqlarını deyirmiş Vüqar. Hər zaman verdiyi sözləri yerinə yetirən bu cəsur oğlan həyatında ilk dəfə olaraq atasına verdiyi "Ata, narahat olma, torpaqlarımızı alıb sağ-salamat sənin yanına qayıdacağam" sözünü tuta bilmədi.

Müharibədə igidlik göstərən Vüqar 25 oktyabr 2020-ci ildə Qubadlı yaxınlığında gedən döyüşdə qəhrəmancasına vuruşaraq gözlərini bir həyata əbədi yumdu. Azadlığımız üçün canlarından keçən igidlərimizdən biri kimi Vüqar ölümü ilə ölümsüzlük zirvəsini qazanaraq şəhidlik məqamına ucaldı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş hərbi qulluqçu Əsgərov Vüqar Rza oğlu (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif edildi.

Vətən uğrunda, bayrağımız uğrunda şəhid olan Vüqarın atası Rza kişi fəxr edir ki, bu gün oğlu ilə bütün Azərbaycan qürur duyur. O deyir ki, hər bir şəhidi hava limanında hər kəsə örnək ola biləcək şəkildə böyük ehtiramla qarşılayan, onların ailələrinə, doğmalarına öz qayğısı ilə mənəvi dəstək olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı 2020-ci il 14 dekabr tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı isə yaralananlara və şəhid ailələrinə göstərilən diqqətin ən gözəl nümunəsidir.

Azadlığımız, suverenliyimiz uğrunda canlarından keçərək 30 illik Qarabağ həsrətimizə son qoyan şəhidlərimizi hər zaman sonsuz sevgi və ehtiramla anacağıq. Ruhunuz şad olsun, Qarabağın azadlıq ətirli xarıbülbülləri!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə***
***II kurs tələbəsi***

# Məktəblilər beynəlxalq müsabiqədə uğur qazanıb

Naxçıvan şəhər ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi potensialının artırılması, tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə "Sabahın tədqiqatçıları" layihəsi davam etdirilir.

2020-ci ilin noyabr ayından yenidən başlanan layihə artıq ilk uğurlarını qazanıb. AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun əməkdaşı, kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədovanın rəhbərliyi ilə iki layihə beynəlxalq müsabiqədə yer tutub.

Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin XI sinif şagirdi Bəxtiyar İsmayılov və X sinif şagirdi Nurgün Allahverdiyevanın kimya fənni üzrə "Yeraltı sular təbiətin möcüzəsidir" mövzusunda hazırladıqları layihə "Rusiya pedaqoqları" Ümumrusiya təhsil portalı tərəfindən keçirilən "Uşaq və gənclərin yaradıcılıq və intellekt" Beynəlxalq müsabiqəsində "Tədqiqatlar və elmi işlər" nominasiyası üzrə I yerə layiq görülüb.



Eyniadlı müsabiqədə iştirak edən Naxçıvan Qızlar Liseyinin X sinif şagirdi Nuray Məmmədova və Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin IX sinif şagirdi Zahidə Allahverdiyevanın "Naxçıvan Muxtar Respublikası ərazisindəki bəzi mineral suların Kurlov formulunun təyini" mövzusunda hazırladıqları layihə də I yerə layiq görülüb. Hər iki komandanın üzvləri diplomla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

# Seminar-müşavirə olub



Naxçıvan Şəhər Nəqliyyat İdarəsində avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyaların verilməsi ilə bağlı keçirilən növbəti seminar-müşavirəni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin sektor müdiri Zaur Əliyev lisenziyanın verilməsi qaydaları və şərtləri haqqında ətraflı məlumat verib. Bildirilib ki, lisenziyanın qüvvədəolma müddəti bir ildir. Ötən il verilmiş lisenziyaların vaxtı bitdiyindən sənədləşmə işi yenidən aparılmalıdır. Sahibkarlar nəqliyyat vasitəsini texniki baxışdan keçirdikdən sonra lazımi sənədlərlə birlikdə Dövlət Nəqliyyat Xidmətinə müraciət edərək lisenziya ala bilərlər. Verilmiş lisenziya əsasında sürücü lisenziya kartı və lisenziyaya əlavə ilə təmin olunur.

Qanunsuz sərnişindaşıma fəaliyyəti göstərənlərə qarşı atılan addımlardan bəhs edən xidmətin sektor müdiri Natiq Həsənov bildirib ki, ötən müddət ərzində Dövlət Nəqliyyat Xidmətinin reyd komissiyası tərəfindən sərnişin və yükdaşıma ilə məşğul olan sürücülərin fəaliyyətinə nəzarət etmək məqsədilə müxtəlif istiqamətlərdə reydlər keçirilib.

Sonra suallar cavablandırılıb, yeni lisenziyalar təqdim olunub.

**✍ Nail ƏSGƏROV**

*Turizm*

# Muxtar respublikada idman turizminin inkişafı üçün geniş imkanlar mövcuddur

*Turizm müasir dünyada qlobal əhəmiyyətə malik olan sahə kimi sosial və iqtisadi əlaqələri tənzimləyir, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradır. Həmçinin müasir turizm bu gün biznes maraqlarının əhatə dairəsini genişləndirməklə iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Yeni iş yerlərinin açılmasında, əhalinin səmərəli məşğulluğunun təmin edilməsində də turizmin mühüm rolu vardır. Ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra bu sahəni diqqət mərkəzində saxlamış, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.*






2002-ci ildə isə qəbul edilmiş "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" ilə bu sahənin hüquqi əsasları, rekreativ ehtiyatlardan səmərəli istifadə olunması qaydaları müəyyənləşdirilmiş və sonrakı dövrlərdə Azərbaycanda turizm sektorunun inkişafına ciddi təkan verilmişdir. 2011-ci il isə ölkəmizdə "Turizm ili" elan olunmuşdur. Artıq bütün dünyada ən gəlirli sahələrdən biri olmaqla geniş və sürətlə inkişaf edən iqtisadi sektor kimi turizmin inkişaf etməsi bu sahəni sosial-iqtisadi inkişafda aparıcı qüvvəyə çevirmişdir. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında da göstərməkdədir.

Naxçıvan Muxtar Respublikasında da turizmin inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətində öz əksini tapıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması bu sahədə görülən işlərin davamıdır.

Müasir dövrdə turizmin mühüm sahələrindən biri də idman turizmidir. İdman turizmi özündə mühüm yenilikləri birləşdirən bir sahə kimi, əsasən, idmanın inkişafı, bu sahə üçün yaradılmış mükəmməl infrastruktur və insanların marağının artması nəticəsində daha da perspektivli bir sektora çevrilməkdədir. İdman və turizm doğru zaman və məkan daxilində birləşdiyində tamlıq təşkil edir və idman turizmini meydana gətirir. Daha bir mühüm xüsusiyyət isə ondan ibarətdir ki, bu iki sahə arasında rəqabət olmaz, əksinə, bir-birindən dəstək alırlar. Hər iki fəaliyyət, əsasən, sərbəst vaxtlarda baş verir. Məsələn, dünyanın müxtəlif yerlərində həyata keçirilən olimpiadalar, turnirlər və əhəmiyyətli yarışlar əvvəlcədən vaxtı və məkanı müəyyən edilməklə insanların tətil üçün vaxt ayırdıqları zamanlara uyğunlaşdırılır. İdman və turizm arasındakı əlaqələr müəyyən mədəni, iqtisadi, siyasi və sosial inkişafa da bağlıdır.

Bunlarla bərabər, idman turizmi bir sıra kateqoriyaları əhatə edir. Belə ki, alpinizm, qolf, ovçuluq, velosipedsürmə, paraşütlə atlamaq açıq idman turizmi, dağ-xizək və digər qış idman növləri qış turizmi, üzgüçülük, avarçəkmə, sörf su idmanı turizmi kimi kateqoriyalarda birləşirlər.

Günü-gündən müasirləşən Naxçıvan Muxtar Respublikasının da böyük turizm potensialı var. Muxtar diyarın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri müxtəlif turizm növlərinin inkişafı üçün əlverişli şərait yaradır. İdman turizmi də məhz bu sahələrdən biridir.

Muxtar respublikada idman sahəsi ilə turizm sektorunu bir-biri ilə əlaqəsindən bəhs edərkən qeyd etməliyik ki, bu turizm sahəsi burada böyük potensiala malikdir. Belə ki, yaradılan əlverişli infrastruktur birlikdə buna həm də coğrafi şərait imkan yaradır. Çünki bildiyimiz kimi ərazinin böyük hissəsi dağ silsilələrindən, alçaq və ortayüksəklikli çoxsaylı dağ və təpələrdən ibarətdir. Bu isə qış turizmi baxımından alpinizmi sevənlər üçün dağ gəzintisində fövqəladə cəlbedici və maraqlı imkanlar təqdim edir. Yəni bu coğrafi potensialın bəxş etdiyi dağçılıq və xizəksürmə muxtar respublikada idman turizminin inkişafında əhəmiyyətli rol oynayır. Buna Şahbuz rayonunun Ağbulaq kəndində yaradılan Xizək Mərkəzini misal göstərə bilərik. Qış fəslinin əlverişli keçməsi hər il minlərlə insanın bu əraziyə gəlməsinə səbəb olur.

İdman turizminin geniş yayılmış növlərindən biri də veloturizmdir. Coğrafi şəraitin əlverişli olması, təmiz və sakit hava, həmçinin mədəni və tarixi obyektlərin mövcudluğu muxtar respublikada bu turizm növünü daha da cəlbedici edir. Əsas üstün cəhəti ondan ibarətdir ki, bu cür gəzinti ilə hava təmiz saxlanılır, insanların sağlamlığının qeydinə qalınır. Veloturizmin inkişaf etdirilməsi gələcəkdə velosiped yarışlarının mütəmadi olaraq keçirilməsinə də imkan yaradır.

Bütün bunlardan əlavə, muxtar respublikada mağara turizminin, piyada turizminin inkişafı, ultramarafonlar üçün mühüm potensial vardır. Bu istiqamətdə görülən işlər, əlverişli təbii şərait, həmçinin idmana ayrılan diqqət qədim diyarı idman turizmi üçün ildən-ilə daha cəlbedici edir. Səyahətlə idmana olan marağın kompleks birləşdirilməsi bu işə öz töhfəsini verə bilər.

*İnanırıq ki, bu istiqamətdə görüləcək kompleks tədbirlər Naxçıvanda idman turizminin inkişafına yeni imkanlar açacaq.*

**Eltun İBRAHİMOV**
**Məhəmməd SÜLEYMANOV**
***AMEA Naxçıvan Bölməsinin***
***əməkdaşları***

## *İtmişdir*

Nəsirova Gülarə Cəfər qızının adına verilmiş Şərur şəhəri Heydər Əliyev prospekti, bina 41, 8-11 nömrəli mənzilin MH-0034112 seriya nömrəli çıxarışı və 102011000006-05101-093004 reyestr nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 964